# Bu il daha yüksək uğurlar qazanacağıq



**Yola saldığımız 2019-cu il xalqımız üçün uğurlu oldu. Bu il ictimai-siyasi, sosial, iqtisadi həyatımızda, eləcə də beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəldilməsi ili kimi tariximizdə qalacaqdır. İlin əvvəlində cənab Prezidentin başladığı sosial islahatlar böyük uğurlarla davam etdirildi. İslahatlar nəticəsində 4 milyon 500 mindən çox insanın həyat şəraiti yaxşılaşdırıldı. Belə ki, cənab Prezidentin imzaladığı 30-a yaxın fərman və sərəncamı əhatə edən iki islahat zərfi nəticəsində sosial sahədə olduqca böyük yenilənmələr baş verdi. Əməkhaqları, pensiyalar, müavinətlər artdı, yeni pensiya növləri təsis olundu.**

Pensiyanın minimum məbləğinə görə Azərbaycan MDB məkanında birinci yerə çıxdı. İl ərzində minimum əməkhaqqı 2 dəfə artırılaraq 250 manata çatdırıldı və büdcədən maliyyələşən bütün təşkilatlarda çalışanların əməkhaqqı qaldırıldı. Eyni zamanda, yeni iş yerlərinin açılması, məşğulluğun təmin olunması və digər sosial proqramlar da uğurla icra olundu. Ünvanlı sosial yardım proqramının həyata keçirilməsində şəffaflıq və əhatəlilik dairəsi daha da genişləndi. Özünüməşğulluq proqramları daha böyük auditoriyanı, xüsusilə aztəminatlı ailələri, qaçqın və məcburi köçkünləri, əlilləri əhatə etdi. Bununla əlaqədar sosial xidmətlərin daha keyfiyyətli, operativ və şəffaf həyata keçirilməsi məqsədilə iki DOST xidməti mərkəzi açıldı. “ASAN xidmət” mərkəzlərinin şəbəkəsi və əhatə dairəsi genişləndirildi.

İlin ikinci yarısında Azərbaycanda çox ciddi struktur və kadr islahatlarına start verildi və cənab Prezidentin təşəbbüsü ilə aparılan bu islahatlar nəticəsində həm idarəetmə sahəsində, həm də gənc kadrların, xüsusilə dünyanın tanınmış univesitetlərində təhsil almış, təcrübə keçmiş, beynəlxalq təşkilatlarda çalışmış gənc kadrların rəhbər vəzifələrə təyin olunması, eyni zamanda, həm Nazirlər Kabinetində, həm də Prezident Administrasiyasında strukrur dəyişikliyinin aparılması çevik, operativ, vətəndaşa yönəlik xidmət göstərən bir idarəetmə strukturunun formalaşması Azərbaycanda modern dövlət quruculuğuna start verildiyinin əlamətləridir. Dövlət başçısının elan etdiyi kimi, biz 2025-ci ildə inkişaf etmiş dövlətlər sırasına çıxmağı qarşımıza məqsəd qoymuşuq. Ona görə də hər bir sahədə şəffaflıq, dürüstlük olmalı, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi şəkildə aparılmalıdır. Cənab Prezidentin dediyi kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, onun rifahı dayanır. Məhkəmə-hüquq sistemində yeni konsepsiya qəbul olundu və bu sahədə də uğurlu islahatlar həyata keçirildi.

Ölkədə hərtərəfli islahatların aparılması üçün geniş hüquqi bazanın yaradılması, çevik qanunvericilik təşəbbüsü ilə çıxış edilməsi, lazımi qanunların vaxtında qəbul olunması üçün Yeni Azərbaycan Partiyasından olan deputatlar yeni parlament seçkilərinin keçirilməsi, bununla da Milli Məclisi daha çevik, işlək quruma çevirmək məqsədi ilə təşəbbüslə çıxış etdilər. Artıq parlament seçkilərinin vaxtı da bəllidir və bu sahədə ciddi hazırlıq işlərinə başlanılıb.

Bütün bunlara rəğmən, 2019-cu ili islahatlar və uğurlar ili adlandırmaq olar. Bu yaxınlarda cənab Prezidentin yerli televiziyalara verdiyi geniş və əhatəli müsahibəsində də qeyd etdiyi kimi, Azərbaycan ictimai, sosial, iqtisadi, siyasi xidmətlər sistemini yenidən qurur, modernləşdirir və daha müasir dövlətə çevirir. Bununla əlaqədar olaraq ən vacib şərtlərdən biri sabitliyimizi, beynəlxalq aləmdə nüfuzumuzu qoruyub saxlamaq, qeyri-neft sektorunu daha da inkişaf etdirməkdir. Keçən il qazanılan uğurlar əsas verir ki, yaxın illərdə əhalinin sosial rifahı daha da yaxşılaşacaq. Bütövlükdə, yola saldığımız ili uğurlu hesab edirəm.

Başda cənab Prezidentimiz olmaqla, xalqımızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edir, hamıya cansağlığı arzulayıram.

**Musa QULİYEV,**
**V çağırış Milli Məclisin deputatı**

